**Hüseyn Elçin DAŞPOLADOV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: huseyn.dashpoladov@gmail.com

# KƏND TƏSƏRRÜFATINDA KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFININ METODOLOJİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi kənd təsərrüfatında kiçik və orta biznesin inkişafının metodoloji məsələlərinin araşdırılmasıdır. Kiçik və orta biznesin inkişaf etdirilməsi problemlərinin mahiyyəti verilmişdir. Müasir dövrdə Azərbaycanın kənd təsərrüfatında kiçik və orta biznesin inkişafını ləngidən məsələlər baxılmışdır. Bu sahədə daha səmərəli fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiq edilməsinin vacibliyi bildirilmişdir. Yeni çağırışlar əsas götürülməklə, Azərbaycanda kənd təsərrüfatı sahəsində kiçik və orta biznesin inkişafı üzrə metodoloji yanaşmalar müəyyənləşdirilmişdir. Tədqiqatın metodu vasitəsi olaraq analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarına müraciət olunmuşdur. Bunlarla yanaşı, kənd təsərrüfatında kiçik və orta biznesin inkişaf problemlərini araşdıran tədqiqatçıların fikirləri nəzərə alınmışdır. Tədqiqatın nəticələri nöqteyi-nəzərindən, əldə olunmuş nəticələrdən Azərbaycanın kənd təsərrüfatında kiçik və orta biznesin inkişafına metodoloji üslubların təkmilləşdirilməsində istifadə etmək mümkündür.

**Açar sözlər:** Azərbaycan, kənd təsərrüfatı, kiçik və orta biznes, metodoloji yanaşmalar, metodoloji üslublar, kənd təsərrüfatında kiçik və orta biznesin inkişaf problemləri.

**UOT:** 330.33
**JEL:** Q1; M21
**DOI:** https://doi.org/10.54414/RJQY3707

## Giriş

Qeyd edək ki, kənd təsərrüfatı iqtisadiyyatın strateji sektorlarından biri olaraq ərzaq təhlükəsizliyinin təmin olunması, məşğulluğun artırılması və regionların inkişafında önəmli rol oynayır. Bu sahədə KOB-un inkişaf etdirilməsi isə dayanıqlı kənd təsərrüfatının və rəqabətqabiliyyətli istehsalın əsas tərkib hissəsi hesab olunur. Müasir şəraitdə bu müəssisələrin inkişafı yalnız iqtisadi deyil, habelə sosial və ekoloji aspektlər baxımından vacibdir. Müasir dövrdə kənd təsərrüfatı sektoru bir çox ölkələrdə, xüsusilə də aqrar iqtisadiyyata malik olan ölkələrdə iqtisadi inkişafın, ərzaq təhlükəsizliyinin və sosial sabitliyin təmin olunmasında həlledici rol oynayır. Bu sahədə KOB-un inkişaf etdirilməsi isə kənd təsərrüfatının modernləşdirilməsi, səmərəliliyin artırılması və inkişafın davamlılığının təmin olunması baxımından xüsusi önəm daşıyır.

KOB az sayda işçi qüvvəsinə, nisbətən məhdud kapitala malik olan, lakin çevik və tez adaptasiya oluna bilən iqtisadi subyektlər sistemidir. Kənd təsərrüfatında bu subyektlər əsasən fərdi fermerlər, ailə təsərrüfatları, kooperativlər və yerli kənd təsərrüfatı müəssisələri formasında təmsil olunurlar. Bu subyektlərin kənd təsərrüfatında rolu əhalinin məşğulluğunun təmin olunması, yerli resursların effektiv istifadəsi, ərzaq məhsullarının istehsal və tədarükü, kənd yerlərində sosial-iqtisadi həyatın canlandırılmasında özünü göstərir.

**Qlobal kontekstdə kənd təsərrüfatında kiçik və orta biznesin inkişafı üzrə metodoloji yanaşmaların araşdırılması.** Qeyd edək ki, KOB, ümumi sahibkarlıq fəaliyyətinin spesifik bir forması kimi iqtisadi kateqoriya baxımından müxtəlif metodoloji yanaşmalar əsasında xarakterizə olunur ki, bunlara aiddir: sahibkarlıq növü olmaqla gəlir əldə etmək və fəaliyyətində

müvəffəqiyyət qazanmaq məqsədilə reallaşdırılan təsərrüfat fəaliyyətinin özünəməxsus formasını təşkil edir, fəaliyyətində daim yeniliklərə, müxtəlif axtarışlara və yeni imkanların tətbiqinə ehtiyac duyulur, elmi yeniliklərin reallaşdırılmasının əsas istiqamətlərindən biri kimi qəbul edilir, təkrar istehsal prosesinin bütün mərhələlərində iştirak edir [1, s.23].

Deməli, KOB, biznes fəaliyyətinin elə bir növüdür ki, burada işçi sayı, kapitalın həcmi və istehsal miqyası çox məhdud olur və bu şərtlər altında aktiv fəaliyyət göstərir. KOB subyektləri adətən yerli bazarlarda fəaliyyət göstərirlər və bu bazarlarda baş verən dəyişikliklərə çevik reaksiya vermək qabiliyyətinə malikdirlər. Onlar istehlakçılarla sıx qarşılıqlı əlaqə qurur, istehsalda ixtisaslaşmanı dərinləşdirir və az miqdarda kapital yatırımı ilə fəaliyyət göstərirlər. KOB subyektlərinin fəaliyyət mühitinə operativ şəkildə uyğunlaşması, bir tərəfdən onların çevikliyini və şəraitə tez uyğunlaşmasını təmin edir, digər tərəfdən isə bu müəssisələr bazarın durumu, eləcə də xarici sosial-iqtisadi və siyasi amillərdən asılı vəziyyətdə olurlar. Kapitalın azlığı bu cür biznes subyektlərinin istehsal imkanlarını məhdudlaşdırır və elmi-texniki nailiyyətlərdən, əlavə maliyyə və əmək resurslarından istifadəyə əngəl yaradır [2, s.10].

Dünya əhalisinin sürətlə artması və iqlim dəyişikliyi fonunda ərzaq təhlükəsizliyi məsələsi getdikcə daha aktual xarakter alır. KOB-un kənd təsərrüfatında fəallığının artırılması yerli istehsalın genişləndirilməsinə, idxaldan asılılığın azalmasına və dayanıqlı ərzaq sistemlərinin formalaşmasına şərait yaradır. KOB-lar kənd yerlərində yaşayan əhali üçün əsas məşğulluq mənbəyidir. Bu sahənin inkişafı kənddən şəhərə miqrasiyanın qarşısının alınması, kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi baxımından xüsusi önəm daşıyır.

Modern kənd təsərrüfatı texnologiyalarının, rəqəmsallaşmanın və innovativ metodların tətbiqi KOB subyektlərinin inkişafı ilə daha sürətli şəkildə baş verir. Bu subyektlər çevikliyi və dəyişən bazar şərtlərinə uyğunlaşmaq bacarığı ilə seçilirlər. Kənd təsərrüfatında KOB-un inkişafı ölkənin müxtəlif regionlarında iqtisadi balansın qorunması və regionlararası fərqlərin azaldılması baxımından da vacibdir. Bu proses kənd infrastrukturunun inkişafına, logistika və nəqliyyat şəbəkələrinin genişləndirilməsinə töhfə verir. Bu səbəblərdən kənd təsərrüfatında KOB-un inkişaf etdirilməsinin metodoloji yanaşmalarının düzgün müəyyənləşdirilməsi zəruridir ki, bu da onların effektiv fəaliyyətini təmin etmək baxımından xüsusi önəm daşıyır.

Kənd təsərrüfatında bazar münasibətlərinin və rəqabət mühitinin genişlənməsi bu sahədə texnoloji zəncir boyunca müxtəlif sahibkarlıq subyektlərinin, xüsusən də KOB-a əsaslanan strukturların formalaşmasına səbəb olmuşdur. Bu istiqamətdə baş verən dəyişikliklər əsasən istehsalın səmərəliliyinin artırılması, daxili və xarici bazarlarda rəqabət imkanlarının gücləndirilməsi və "investisiya – istehsal – emal – satış" ardıcıllığının daha sürətli icrasını təmin etməyə yönəlmişdir. İEÖ-lərin kənd təsərrüfatı sahəsindəki təcrübəsi göstərir ki, bu məqsədlərə çatmaq üçün kənd təsərrüfatı birlikləri müxtəlif kooperativlər, assosiasiyalar və digər birgə fəaliyyət formaları əsasında uğurla təşkil olunur. Hazırkı mərhələdə, cəmiyyətin inkişaf xüsusiyyətlərini nəzərə alaraq, kənd təsərrüfatı sektorunda, xüsusilə də kənd ərazilərində mülkiyyət formalarının təkmilləşdirilməsi önəmli məsələlərdən birinə çevrilmişdir. Artıq aparılan iqtisadi islahatlar nəticəsində bu dəyişikliklər yalnız kənd təsərrüfatı ilə məhdudlaşmır, digər sahələrə də təsir göstərməkdədir. Bu dəyişikliklər istehsal vasitələrinə olan mülkiyyət hüququnun forma və məzmuna qarşılıqlı təsiri əsasında dərin transformasiyalarla müşayiət olunur. Hesab edirik ki, bu yanaşma kənd təsərrüfatı sektorunda qarşıdakı dövrdə baş verəcək dəyişikliklər üçün mühüm metodoloji baza rolunu oynamalıdır.

Kənd təsərrüfatında fəaliyyət göstərən KOB, özünəməxsus bir sıra spesifik xüsusiyyətlərə malikdir ki, bu xüsusiyyətlər əsasən kənd təsərrüfatı sahəsinin özünəməxsusluğundan irəli gəlir. Belə ki, bu sahədə torpaq əsas investisiya əmtəəsi, yəni istehsal vasitəsi rolunu oynayır. Bu müəssisələrin əsas xüsusiyyətləri məhdud maliyyə və texniki resurslara malik olmaları, əmək tutumlu istehsalın üstünlük təşkil etməsi, yerli bazarlara yönəlmiş fəaliyyət strategiyalarının olması, yeniliyə və innovasiyalara açıq, lakin tətbiq imkanlarının məhdud olması ilə xarakterizə olunur. Bundan əlavə, kənd təsərrüfatında istehsal prosesi mövsümi xarakter

daşıyır və bu səbəbdən maliyyə, əmək və maddi resurslardan istifadə il ərzində qeyri-bərabər şəkildə baş verir. Kapital dövriyyəsinin ləngliyi, məhsul istehsalı ilə onun satış dövrləri arasındakı uyğunsuzluq, eləcə də təbii-iqlim şəraitindən qaynaqlanan əlavə risklər də bu sahənin xarakterik xüsusiyyətlərindəndir. Bütün bu xüsusiyyətlər kənd təsərrüfatında istehsalın təbii faktorlarla sıx şəkildə bağlı olduğunu göstərir [3, s.137].

Müasir şəraitdə kənd təsərrüfatında KOB-un inkişaf etdirilməsi müəyyən metodoloji yanaşmalara əsaslanır ki, bunlara sistemli, institusional, resurs, innovasiya əsaslı və s. yanaşmaları aid edə bilərik. Sistemli yanaşmaya əsasən, kənd təsərrüfatında KOB-un inkişafı yalnız bir sahənin deyil, bütün kənd təsərrüfatı sisteminin elementlərinin qarşılıqlı əlaqəsi kontekstində nəzərdən keçirilməlidir. Bu yanaşma torpaq istifadəsi, su resursları, əmək bazarı və kənd infrastrukturu kimi faktorları əhatə edir.

Kənd təsərrüfatında KOB-un davamlı və rəqabətqabiliyyətli inkişafı üçün müasir idarəetmə yanaşmalarının tətbiqi vacibdir. Bu sahədə resurs əsaslı yanaşma KOB-un daxili potensialına – yəni fiziki, insan və intellektual resurslara əsaslanaraq üstünlük qazanmasını hədəfləyir. Son illərdə kənd təsərrüfatında iqtisadi səmərəlilik və dayanıqlılıq məsələləri prioritet istiqamətə çevrilmişdir. Ənənəvi yanaşmaların tədricən effektivliyini itirməsi fonunda resurs əsaslı yanaşma ön plana çıxır. Bu yanaşma müəssisənin daxili resurs və qabiliyyətlərini əsas götürərək, xarici mühitdən daha az asılı şəkildə strateji üstünlük əldə etməyə imkan verir. Resurs əsaslı yanaşma kənd təsərrüfatı sahəsində KOB-un inkişafı üçün mühüm nəzəri və praktik çərçivə təqdim edir.

**Müasir dövrdə kənd təsərrüfatında kiçik və orta biznesin inkişafının metodoloji üslublarının təkmilləşdirilməsi yolları.** Məhsul istehsalında yalnız resursların mövcudluğu kifayət etmir, habelə əmək, kapital və torpaq kimi resursların vəhdətini təşkil edən, idarə edən və səmərəli istifadəni təmin edən KOB subyektlərinin rolu xüsusilə vacibdir. KOB subyektləri resurslar arasındakı qarşılıqlı əlaqəni gücləndirərək, onları aktivləşdirir və cəmiyyətin ehtiyaclarına cavab verəcək məhsulun yaradılmasını mümkün edir. Bu səbəbdən kənd təsərrüfatında KOB-un tənzimlənməsi həmin sahənin xarakterik xüsusiyyətləri nəzərə alınmaqla aparılmalıdır [4, s.51]. Sürətlə dəyişən texnoloji çağırışlar və qlobal iqlim dəyişiklikləri kənd təsərrüfatında KOB-un inkişaf etdirilməsinə innovativ yanaşmaların tətbiqini zəruri edir. Kənd təsərrüfatında KOB-un inkişaf etdirilməsinə innovasiyalı yanaşma metodologiyası, rəqəmsal texnologiyalar, ağıllı idarəetmə sistemləri və davamlı inkişaf prinsiplərinin tətbiqinə əsaslanır.

Qeyd edək ki, innovasiyalar yalnız yeni texnologiyaların tətbiqi ilə məhdudlaşmır, habelə, idarəetmə, logistika, məhsulun layihələndirilməsi və marketinq sahələrində yeni metodların tətbiqini nəzərdə tutur. Kənd təsərrüfatında innovasiyalar aqrotexnoloji yeniliklər, rəqəmsal platformalar, biotexnologiyalar, iqlimə uyğunlaşma texnologiyaları şəklində özünü göstərir. Məsələn, sensorlar vasitəsilə torpağın rütubəti və temperaturu haqqında məlumatların toplanması, bu məlumatlara əsaslanaraq suvarma və gübrələmə sistemlərinin avtomatik tənzimlənməsi kiçik təsərrüfatlarda məhsuldarlığın artmasına səbəb olur. Bu texnologiyalar xərclərin azalmasına və resursların daha səmərəli istifadəsinə şərait yaradır. Dron və peyk texnologiyalarının tətbiqi əkin sahələrinin vəziyyətinin izlənməsi, pestisidlərin və gübrələrin dəqiq yayılması üçün istifadə edilir. Bu yanaşma xüsusilə meyvə bağlarında və geniş sahəli əkinlərdə özünü doğruldur. Rəqəmsal marketinq və elektron ticarətdən fermerlər məhsullarını birbaşa istehlakçılara çatdırmaq üçün istifadə edə bilirlər. Bu, vasitəçilərin sayını azaltmaqla yanaşı, gəlirliliyi artırır, habelə məhsulun keyfiyyətinə nəzarət və izləmə imkanları da genişlənir.

KOB kateqoriyasına daxil olan müəssisələrin innovativ və müasir texnologiyalardan istifadə səviyyəsi onların keyfiyyətinin qiymətləndirilməsində əsas kriteriyalardan biri kimi çıxış edir. Bu müəssisələrin fəaliyyətində işçi qüvvəsinin ixtisas dərəcəsi, kadr potensialı, ixtisaslaşma səviyyəsi və digər göstəricilər önəmli rol oynayır. Kəmiyyət baxımından isə müəssisədə çalışan işçilərin sayı, illik dövriyyə həcmi, istehsalın fasiləsizliyini təmin edən əsas istehsal vasitələrinin norma göstəriciləri nəzərə alınmalıdır. Hazırkı iqtisadi mühitdə yeni biznes

sahələrinin davamlı inkişafı bilavasitə innovasiyaların necə tətbiq olunması ilə birbaşa əlaqədardır [5, s.86].

Kənd təsərrüfatında KOB-un inkişafı problemlərinin həlli onların bütün iştirakçıları arasında əlaqələrin qurulmasını nəzərdə tutan klaster yanaşması ilə təmin edilə bilər. Kiçik və orta kənd təsərrüfatı istehsalçıları üçün aqrar-sənaye klasterlərinin yaradılmasının iqtisadi məqsədəuyğunluğu onların innovativ inkişafı imkanlarının təmin edilməsi, kənd təsərrüfatı istehsalının xüsusiyyətləri, kənd təsərrüfatı məhsullarının sosial əhəmiyyəti, ərazi dispersiyası, məhsulların rəqabət qabiliyyətinin artırılması zərurəti və digər amillərlə əlaqələndirilir [6, s.163].

Yuxarıda qeyd olunan yanaşmalara əsaslanmaqla kənd təsərrüfatında KOB-un inkişafı üçün əlverişli mühit formalaşdırmaq olar. Ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən, kənd təsərrüfatında KOB sektorunda işgüzar münasibətlərin dərinləşdirilməsi, biznes mühitinin cəlbediciliyinin təmin olunması tədbirləri sistemli və ardıcıl xarakter daşımalıdır. Kənd təsərrüfatında KOB-un inkişaf etdirilməsi hesabına ölkə regionlarında regional innovativ inkişafın sürətləndirilməsi və biznes mühitinin yaxşılaşdırılması təmin olunmalıdır.

Biznes mühitinin dəstəklənməsi sahəsində təsirli və səmərəli dəstək böyük resurs imkanlarına və geniş səlahiyyətlərə malik olan ixtisaslaşmış dövlət qurumları vasitəsi ilə reallaşdırılır. Dünya ölkələrində KOB subyektlərinə dövlət dəstəyi tədbirlərinə yeni başlayan sahibkarlar üçün zəmanət və kreditlər, əmtəə kreditləri, vençur maliyyələşdirməsi, konsaltinq xidmətləri, vergi güzəştləri və s. daxildir. Hesab edilir ki, dövlət dəstəyi KOB strukturlarının yaradılması və saxlanmasında əsas amillərdəndir [7, s.16–17].

Sosial-siyasi ilkin şərtlər isə daha çox kənd yerlərində məşğulluğun artırılması məqsədilə kompleks tədbirlərin hazırlanmasını, kənddə mövcud olan müsbət ənənələrin qorunması və inkişafına dəstək verilməsini, aztəminatlı ailələr üçün hədəfli sosial yardımların hazırlanmasını və kəndlə şəhər əhalisinin sosial infrastruktur obyektlərinə bərabər çıxış imkanlarının təmin olunmasını əhatə edir.

KOB-un inkişafı metodologiyasının təcrübədə tətbiqi investisiya fəaliyyətinin canlanması ilə özünü göstərəcək. Bu o deməkdir ki, əhalinin və dövlətin, iqtisadiyyatın maliyyə və real sektorlarının maraqlarının tarazlığı təmin edilir, yəni səmərəli institusional transformasiyalar üçün zəruri ilkin şərtlər yaradılır.

Kənd təsərrüfatında KOB-un inkişafını dəstəkləmək məqsədilə onun məhsuldar fəaliyyəti üçün lazım olan ümumi şərtlərin yaxşılaşdırılması vacib sayılır ki, bu şərtlər aşağıdakılardır:

- dövlət dəstəyi vasitəsilə kənd təsərrüfatının gəlirliyinin artırılması, investisiya baxımından daha cəlbedici hala gətirilməsi, texniki və texnoloji səviyyədə aqrar sənayenin yenilənməsi, torpaq və digər təbii ehtiyatlardan daha səmərəli istifadə imkanlarının genişləndirilməsi;
- kreditləşmədə əlçatanlığın artırılması, torpaq ipotekasının inkişaf etdirilməsi, lizinq və sığorta bazarlarının rəqabət imkanlarının gücləndirilməsi;
- peşəkar kadrların hazırlanması, onlara dəstəyin göstərilməsi, kənd yerlərinə mütəxəssislərin cəlb olunması və onların yaşayış şəraitinin yaxşılaşdırılması. Kənd təsərrüfatı sahəsində işləmək, kənd yerlərində yaşamaq indiki gənclər arasında prestijli deyil. Bu səbəbdən kənd təsərrüfatında KOB subyektləri yüksək ixtisaslı kadrların, xüsusən də istehsalat təcrübəsi olan kadrların işə götürülməsində çətinliklərlə üzləşir
- bütün kənd təsərrüfatı subyektləri üçün maliyyə sabitliyinin möhkəmləndirilməsi;
- kənd təsərrüfatı məhsulların, xammal və ərzaq mallarının səmərəli şəkildə dövriyyəsini təmin edən bazar strukturlarının inkişaf etdirilməsi;
- ÜTT-nin tələbləri daxilində yerli istehsalçıların maraqlarını qoruyacaq dövlət tənzimləmə tədbirlərinin təkmilləşdirilməsi;
- kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən kooperativlərin genişləndirilməsi və həmin sahə məhsulları istehsalçılarının, eləcə də xidmət təşkilatlarının dövlətin aqrar siyasətinin formalaşmasında aktiv iştirakının təmin edilməsi və s.

**Nəticə**

Kənd təsərrüfatı sahəsində KOB-un inkişafı, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına və kənd əhalisinin rifah səviyyəsinin yüksəldilməsinə xidmət edən köklü və transformativ dəyişikliklər kimi qiymətləndirilməlidir. Bu baxımdan, kənd yerlərində KOB-un effektiv inkişafını dəyərləndirmək üçün aşağıdakı meyarlar əsas götürülə bilər:

- ✓ kiçik və orta müəssisələrin istehsal strukturu, sahə yönümlülüyü və idarəetmə formasının bazar iqtisadiyyatına uyğunluğu;
- ✓ istehsalın həcmi ilə ərazinin potensial imkanları arasında olan nisbət;
- ✓ yerli kənd təsərrüfatı məhsullarının keyfiyyət və qiymət baxımından idxal malları ilə müqayisəli vəziyyəti;
- ✓ ərzaq məhsullarının ümumi istehlakında idxalın payı;
- ✓ kənd əhalisinin adambaşına düşən orta gəlir səviyyəsi;
- ✓ kənd yerlərində işsizlik səviyyəsi və sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı.

Aparılmış tədqiqatların nəticələri göstərir ki, kənd təsərrüfatı sahəsində KOB-un inkişafının təmin edilməsi üçün ölkə və region səviyyəsində dövlət dəstəyi üzrə əlavə tədbirlərin reallaşdırılmasına ehtiyac var. Bu məqsədlə, KOB-un inkişafına dair dövlət dəstəyi mexanizminin formalaşdırılması aşağıdakı mərhələləri əhatə edən metodoloji baza əsasında qurulmalıdır:

- dövlətin struktur siyasətinə dair məqsəd və vəzifələrin müəyyənlərşdirilməsi;
- KOB-un fəaliyyət göstərdiyi institusional və struktur-funksional mühitin təhlil olunması, mövcud çətinliklərin aşkarlanması;
- KOB-un inkişafına təsir göstərən əsas amillərin təhlili və qiymətləndirilməsi;
- dövlət dəstəyi mexanizminin prioritet istiqamətlərinin formalaşdırılması;
- institusional və təşkilati təkmilləşdirmələrin və digər müvafiq tədbirlərin reallaşdırılması və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Xudaverdiyeva E.M. Kənd təsərrüfatında kiçik sahibkarlığın stimullaşdırılmasının təkmilləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Gəncə, 2021, 30 s.
2. Əhmədov S.T. Aqrar sahədə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsinin xüsusiyyətləri (Gəncə-Qazax iqtisadi rayonun timsalında). Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Gəncə, 2021, 30 s.
3. Xudaverdiyeva E. Kənd təsərrüfatında kiçik sahibkarlığın inkişaf istiqamətləri. İpək yoku, 2017;3:136–140.
4. Yusufova Ş.A. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı, 2021;4 (38):48–54.
5. Hacıyeva S.T. Aqrobiznes sferasında kiçik və orta sahibkarlığın institusional aspektləri. Elmi Xəbərlər, 2024(4):82–89.
6. Борисов С.В. Исследование особенностей организации малого и среднего предпринимательства в сельской местности. С.В. Борисов, Е.И. Роговский. Вестник Алтайского государственного аграрного университета. 2016;2(136):159–164.
7. Qarayev R.Ə. Sahibkarlığın inkişafına dair strateji yol xəritəsi çərçivəsində biznes mühitinin yaxşılaşdırılması istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Bakı, 2024, 36 s.

**Huseyn Elchin DASHPOLADOV**
PhD student at Azerbaijan Cooperation University

## METHODOLOGICAL ISSUES OF SMALL AND MEDIUM BUSINESS DEVELOPMENT IN AGRICULTURE

**Summary**

The purpose of the study is to investigate the methodological issues of the development of small and medium-sized businesses in agriculture. The essence of the problems of the development of small and medium-sized businesses is given. Issues that hinder the development of small and medium-sized businesses in the agriculture of Azerbaijan in the modern period are considered. The importance of developing and implementing more efficient mechanisms of action in this area is stated. Taking new challenges as a basis, methodological approaches to the development of small and medium-sized businesses in the agricultural sector of Azerbaijan are determined. As a means of the research method, the methods of analysis, synthesis, comparison and generalization were applied. Along with these, the opinions of researchers studying the problems of the development of small and medium-sized businesses in agriculture were taken into account. Results of the study - from the point of view, the results obtained can be used to improve methodological styles for the development of small and medium-sized businesses in the agriculture of Azerbaijan.

**Keywords*:*** Azerbaijan, agriculture, small and medium business, methodological approaches, methodological styles, problems of development of small and medium business in agriculture.

**Гусейн Эльчин ДАШПОЛАДОВ**

Докторант Азербайджанского Университета Кооперации

**МЕТОДОЛОГИЧЕСКИЕ ВОПРОСЫ РАЗВИТИЯ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ**

**Резюме**

Цель исследования – изучение методологических вопросов развития малого и среднего бизнеса в сельском хозяйстве. Представлена сущность проблем развития малого и среднего бизнеса. Рассмотрены проблемы, препятствующие развитию малого и среднего бизнеса в сельском хозяйстве Азербайджана в современный период. Обоснована важность разработки и внедрения более эффективных механизмов действия в этой области. На основе новых вызовов определены методологические подходы к развитию малого и среднего бизнеса в агропромышленном секторе Азербайджана. В качестве метода исследования были применены методы анализа, синтеза, сравнения и обобщения. Наряду с этим были учтены мнения исследователей, изучающих проблемы развития малого и среднего бизнеса в сельском хозяйстве. Результаты исследования с точки зрения их применения, могут быть использованы для совершенствования методологических подходов к развитию малого и с.

**Ключевые слова:** Азербайджан, сельское хозяйство, малый и средний бизнес, методические подходы, методические стили, проблемы развития малого и среднего бизнеса в сельском хозяйстве.

**Daxil olub:** 26.02.2026